# 20 Yanvar faciəsinə həsr olunmuş konfrans

**Gəncə Şəhər İcra Hakimiyyətinin və Azərbaycan Dövlət Aqrar Universitetinin birgə təşkilatçılığı ilə "20 Yanvar hadisələrinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilmişdir.**



Konfransda ADAU-nun rektor vəzifəsini icra edən Zəfər Qurbanov diqqətə çatdırmışdır ki, 1990-cı il yanvarın 20-si Azərbaycan tarixinə ən faciəli günlərdən biri, eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur: "Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gəlmiş, Qanlı Yanvar qırğınını törədənləri ifşa edən bəyanatla çıxış etmişdir. Bununla da Ulu Öndər cəsarətini, müdrikliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdir".

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev də çıxışında Ulu Öndərin tarix yaradan şəxsiyyət olmaqla yanaşı, həm də tarixi hadisələrə ən doğru-düzgün qiymət verən mütəfəkkir dövlət xadimi, misilsiz şəxsiyyət olduğunu qeyd etmiş və demişdir ki, bu baxımdan dahi siyasətçinin 20 Yanvar hadisələri ilə bağlı siyasi fəaliyyəti və faciəyə verdiyi qiymət özü mükəmməl bir tarixi nümunədir.

Konfransda Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin şəhidlərin ailələrinin sosial problemlərinin həllinə diqqətlə yanaşdığı da diqqətə çatdırılmışdır.

ADAU-nun müəllim və tələbələrinin mövzu ətrafında çıxışlarından sonra 20 Yanvar faciəsindən bəhs edən videoçarx nümayiş etdirilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2023.-20 yanvar.- S.11.